


“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 5 aprel 2023-cü il №25 (2737) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin “Baykar” şirkətinin texniki direktoru Selçuk Bayraktarı qəbul edib





*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarı qəbul edib.*

AZƏRTAC xəbər verir ki, Selçuk Bayraktar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdıraraq Türkiyədə baş verən zəlzələnin fəsadlarının aradan qaldırılmasında göstərilən qardaşlıq yardımına görə Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Prezidentinə minnətdarlığını bir daha ifadə edib.

Dövlətimizin başçısı salamlara görə təşəkkürünü bildirib, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş edib.

Prezident İlham Əliyev zəlzələ zamanı həlak olanlara bir daha Allahdan rəhmət diləyərək, Azərbaycanın Türkiyəyə yardımını qardaşlıq borcu kimi dəyərləndirib.

Azərbaycan Prezidenti bu yaxınlarda Ankarada Türkiyə Prezidenti ilə görüşünü və Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərlərini məmnunluqla xatırlayaraq, Türkiyə Prezidentinin işğaldan azad edilmiş ərazilərimizə səfərlərinin xüsusi əhəmiyyət daşıdığını qeyd edib.

Prezident İlham Əliyev Türkiyənin müdafiə sənayesinin son illərdə çox böyük nailiyyətlər əldə etdiyini deyərək, bu xüsusda "Baykar" şirkətinin fəaliyyətinin aparıcı rol oynadığını vurğulayıb və bu şirkətin istehsal etdiyi məhsulların Vətən müharibəsi dövründə erməni işğalçılarının hərbi texnikasının məhv edilməsində oynadığı rolu bir daha qeyd edib.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün digər sahələrdə olduğu kimi, hərbi və müdafiə sənayesi sahələrində də uğurla inkişaf etdiyi vurğulanıb, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Sonda dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olunub.

## “Aprel döyüşlərində ordumuz ilk dəfə müasir silahlarını, PUA-larını sınaqdan çıxardı”

Aprel döyüşləri 44 günlük Vətən müharibəsinin hazırlığı, məşqi idi. Hələ 1994-cü ildən bəri Azərbaycan Ordusu daim təlimlər keçirirdi. Ordumuzun mənsubları xarici ölkələrdə zabit kadrlarının hazırlanmasında və NATO qüvvələrinin tərkibində təlimlərdə fəal iştirak edirdilər. Yeni silah-sursat, texnika alınırdı, məşqlər, təlimlər təşkil olunurdu. Həmçinin hərbi məktəblərdə proqramlar müasirləşdirilirdi. Beləliklə, 2016-cı ilin Aprel döyüşlərinə qədər Azərbaycan Ordusu müəyyən təcrübə topladı, silahlandı, orduda yenidən təşkilatlanma aparıldı. Bunların hamısının təlim-məşqlərini keçib, düşmənə son xəbərdarlıq edildi.

Bunu ehtiyatda olan polkovnik-leytenant, Heydər Əliyev adına Hərbi İnstitutun hərb tarixi müəllimi Vüqar Əliyev AZƏRTAC-a müsahibəsində Aprel döyüşlərinin İkinci Qarabağ müharibəsində rolu və ordumuza döyüşdə qazandırdığı üstünlüklər barədə danışarkən deyib.

O bildirib ki, bu döyüşlərdə ilk dəfə pilotsuz uçuş aparatları (PUA) tətbiq olundu. Azərbaycan bu günədək təlimlərdə məşq etdiklərinin əksəriyyətini düşmən üzərində icra etdi. Lakin düşmən bundan nəticə çıxarmadı. Həmin döyüşlərdə düşmən həm canlı qüvvə, həm də texnika baxımından ağır itkilər verdi.

"Əsas strateji yüksəkliklər, o cümlədən Lələtəpə düşməndən azad olundu. Bu hakim yüksəklik 15 kilometr məsafədə ərazini müşahidə etmək imkanı verdi. Lələtəpə düşmən tərəfində olanda biz onların fəaliyyətlərini, yerdəyişmələrini izləyə bilmirdik. Bu, yalnız kəşfiyyat vasitəsilə mümkün idi. Amma Lələtəpəni aldıqdan sonra artıq düşmən ərazilərimizə, yerdəyişməyimizə, hərəkətimizə nəzarət imkanlarını itirdi. Biz isə onların artıq dərinlikdəki qüvvələrini görürdük, müşahidə edirdik. Bu da öz növbəsində Vətən müharibəsi zamanı bizə böyük üstünlük verdi. Düşmən bundan əvvəl aldığı zərbədən nəticə çıxarmamışdı. Lakin 44 günlük müharibədə son cavabını aldı və ordumuz Qələbə qazandı", - deyə hərb tarixi müəllimi vurğulayıb.

Onun sözlərinə görə, Lələtəpənin alınması İran sərhədinə qədərki ərazilərə, həmçinin atəş məsafəsindəki Cocuq Mərcanlı kəndinə, eyni zamanda, yerli əhalinin rahat yaşaması üçün çoxlu yaşayış məntəqələrinə ordumuzun müşahidə aparmasına şərait yaratdı. Belə ki, Aprel döyüşlərindən əvvəl düşmən Lələtəpə yüksəkliyindən yerli əhalini atəşə tutur, əkin-biçin işlərinə mane olurdu. Həmçinin ordumuzun hərəkətlərini izləyirdi. Bu yüksəkliyin alınması ilə düşmən artıq dərinliyi müşahidə edə bilmədi. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə qısa müddətdə Cocuq Mərcanlı kəndində yenidənqurma işləri aparıldı, əhali ora köçürülərək təhlükəsiz şəraitdə yaşamağa davam etdi.

Azərbaycan Ordusuna Aprel döyüşlərinin qazandırdığı təcrübədən danışan polkovnik-leytenant qeyd edib ki, bu döyüşlərdə ordumuz ilk dəfə müasir silahları, o cümlədən pilotsuz uçuş aparatlarını və ən müasir tank əleyhinə idarəolunan raket komplekslərini sınaqdan çıxardı. O zamana kimi biz televizorda ABŞ-ın İraqda və Əfqanıstandakı döyüşlərdə pilotsuz uçuş təyyarələrinin havada uçaraq uzaq məsafədən hədəflərə zərbələr endirdiyini görürdük.

"Aprel döyüşlərində hədəfi görərək onu partladan kamikadze silahı, eyni zamanda, müəyyən hündürlükdə kəşfiyyat tapşırıqları yerinə yetirən PUA-lar, həmçinin digər silahlar istifadə edildi. Həmçinin kamikadze, müşahidə və zərbə dronları birgə tətbiq olundu. Bunların hamısının birgə istifadəsi uğurla sınaqdan çıxarıldı. Sonralar müəyyən təkmilləşdirmələr aparılmaqla bunun Vətən müharibəsində uğurlu tətbiqinin media vasitəsilə hamı şahidi oldu", - deyə Vüqar Əliyev söyləyib.



Şəhid Milli Qəhrəman Şükür Həmidovun anım mərasimi keçirildi

3-cü səhifədə



Ulu Öndər Heydər Əliyevin adının əbədiləşdiyi təhsil ocağı

4-cü səhifədə



Gəncə Hərbi Hospitalının yaranmasının 30 illiyi qeyd edildi

5-ci səhifədə



“Qazanan dostluğumuzdur”

7-ci səhifədə

# Müdafiə naziri “Baykar” şirkətinin texniki direktoru ilə görüşüb







Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, aprelin 3-də müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyənin "Baykar" şirkətinin texniki direktoru cənab Selçuk Bayraktar ilə görüşüb.

Müdafiə naziri qonağı salamlayaraq onu ölkəmizdə görməkdən məmnun olduğunu bildirib.

Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd edən nazir bu əlaqələrin zaman keçdikcə daha da inkişaf etdiyini və gücləndiyini bildirib.

Ölkə rəhbərlərinin dostluq münasibətlərinin dövlətlərimiz arasında əlaqələrin inkişafında mühüm rol oynadığı xüsusi vurğulanıb.

Səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirən S.Bayraktar ölkəmizə səfərindən məmnun olduğunu və bu cür görüşlərin qarşılıqlı əməkdaşlığımızın genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini qeyd edib.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında hərbi-texniki əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib.

Sonda müdafiə naziri cənab S.Bayraktarı "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı ilə təltif edib.

# Müdafiə naziri: “Azərbaycan Ordusunun son əməliyyatlarda qazandığı uğurlar və şəxsi heyətin peşəkarlığı Ali Baş Komandan tərəfindən yüksək qiymətləndirilib”

*Aprelin 1-də müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.*



Müşavirədə nazir müavinləri, qoşun növü komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, eləcə də videobağlantı vasitəsilə hərbi birlik və birləşmə komandirləri iştirak ediblər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının, həmçinin 31 mart soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu vəzifələri müşavirə iştirakçılarına çatdıran nazir həyata keçirilən son əməliyyatların planlaşdırılmasına və icrasına cəlb olunan şəxsi heyətə, xüsusilə birliklərin komando heyətinə göstərdikləri peşəkarlığa görə Ali Baş Komandan adından təşəkkür edib, onların fəaliyyətinin yüksək qiymətləndirildiyini bildirib. Qısa müddət ərzində icra olunan lokal əməliyyatların ordumuzun yüksək döyüş əzminin növbəti göstəricisi olduğunu qeyd edib.

Azərbaycan Ordusunun uğurlu əməliyyatlarını həzm edə bilməyənlər tərəfindən səsləndirilən fikirləri şərh edən müdafiə naziri heç kəsin bizimlə təhdid dilində danışa bilməyəcəyini vurğulayaraq terrorizmi və işğalçılıq siyasətini dəstəkləyən bəzi ölkələrin hərbçilərinin şər-böhtan xarakterli ittihamlarının qəbuledilməz və cəfəngiyyat olduğunu bildirib.

Azərbaycan-Ermənistan şərti dövlət sərhədində və Qarabağ iqtisadi rayonunda mövcud əməliyyat şəraitini təhlil edən müdafiə naziri ehtimal olunan təxribatların qarşısının bundan sonra da qətiyyətlə alınması barədə müvafiq göstərişlər verib.

Müdafiə naziri qeyd edib ki, qarşı tərəfin, o cümlədən qeyri-qanuni erməni silahlı birləşmələrinin bütün qanunsuz fəaliyyətləri bundan sonra da fasiləsiz nəzarətdə saxlanılmalı və Azərbaycan ərazilərində gələcəkdə bu kimi addımların atılmasına imkan verilməməlidir.

General-polkovnik Z.Həsənov real döyüş şəraitinə uyğun keçirilən təlim və məşqlərin intensivliyinin artırılmasının, həmçinin silahlanmada olan müasir silah və hərbi texnikanın effektiv tətbiqi üsullarının təkmilləşdirilməsinin əhəmiyyətini xüsusi qeyd edib.

Müdafiə naziri təhlükəsizlik qaydalarına, eləcə də yanğın əleyhinə zəruri tədbirlərə ciddi əməl edilməsinin vacibliyini bir daha xatırladıb.

Nazir şəxsi heyətə diqqət və qayğının artırılması, onların tibbi təminatının mövsümün tələblərinə uyğun ciddi nəzarətdə saxlanılması, xüsusilə də xidmətə yeni gələn gənc əsgərlərin adaptasiya prosesinə həssaslıqla yanaşılması barədə komandir heyətinə tövsiyələrini çatdırıb.

Şəxsi heyətin xidməti-döyüş və sosial-məişət şəraitinin daima yaxşılaşdırılmasının hərbi qulluqçuların mənəvi-psixoloji vəziyyətində, eləcə də döyüş ruhunun yüksək səviyyədə saxlanılmasında mühüm rol oynadığını qeyd edən nazir bu istiqamətdə görülən işlərin planlı şəkildə davam etdirilməsinə dair əlavə göstərişlər verib.

Sonda general-polkovnik Zakir Həsənov azad edilmiş ərazilərdə, həmçinin yeni nəzarətə götürülən yüksəklik və mövqelərimizdə mühəndis təminatı tədbirlərinin daha keyfiyyətli yerinə yetirilməsi barədə konkret tapşırıqlar verib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Hərbi hissələrdə birinci rübün nəticələrinə dair yekun keçirilib





Müdafiə nazirinin təsdiq etdiyi tədris ilinə hazırlıq planına əsasən, hərbi hissələrdə 2023-cü tədris ilinin birinci rübünün nəticələrinə dair yekun keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Yekunda bölmələrin döyüş qabiliyyətinin artırılması və xidməti-döyüş fəaliyyətinin təşkilinə dair 2023-cü ilin birinci rübü ərzində görülən işlər, yerinə yetirilən tapşırıqlarla bağlı məruzələr dinlənilib, döyüş hazırlığının, maddi-texniki təminatın, hərbi intizamın və qoşun xidmətinin vəziyyəti təhlil olunub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusuna verdiyi qiymət, göstərdiyi diqqət və qayğı xüsusi vurğulanıb.

Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu vəzifələr, müdafiə naziri general-polkovnik Zakir Həsənovun xidməti-döyüş fəaliyyətinin, qoşun xidməti və döyüş növbətçiliyinin təşkili ilə bağlı tapşırıqları yekun iştirakçılarının diqqətinə çatdırılıb.

Sonda xidmətdə fərqlənən, yüksək intizamı ilə seçilən hərbi qulluqçular təltif olunublar.

# Şəhid Milli Qəhrəman Şükür Həmidovun anım mərasimi keçirildi



Dövlətimiz və ordumuz tərəfindən şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, onların hörmət və ehtiramla yad edilməsi istiqamətində tədbirlərin keçirilməsi hər zaman diqqət mərkəzində saxlanılır. Vətən müharibəsi zamanı adlarını tarixin səhifələrinə qızıl hərflərlə yazan igidləri, vətənpərvərləri, qəhrəmanları tanımaq və tanıtmaq bizə böyük qürur yaşadır. 44 günlük haqq savaşında qəhrəmanlıq göstərən qorxmaz oğullarımızın şücaətinə, onların döyüş yoluna nəzər saldıqca kövrəkliklə yanaşı qürur, kədərlə qarışıq sevinc hissi yaşayırıq. Qədirbilən xalq olaraq hər bir şəhidinin ruhunu əziz tutur, onların qəhrəmanlıqlarını, əməllərini, xatirələrini dərin hörmətlə qəlbimizdə yaşadırıq. Mütəmadi hal alan şəhidlərin anım mərasimləri dərin hörmət və ehtiramın təzahürüdür.

İkinci Şəhidlər xiyabanında Azərbaycanın Milli Qəhrəmanı şəhid polkovnik Şükür Həmidovun doğum günü münasibətilə anım mərasimi keçirildi. Şəhid zabitin məzarı ziyarət edildi, önünə əklil və gül dəstələri qoyularaq xatirəsi ehtiramla yad olundu.

Mərasimdə Müdafiə Nazirliyinin bir qrup zabiti, Qubadlı rayon İcra Hakimiyyətinin və Qubadlı rayon Mədəniyyət Evinin əməkdaşları, ictimaiyyət nümayəndələri, Milli Qəhrəmanın ailə üzvləri, döyüş yoldaşları və məktəblilər iştirak etdilər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Mərasimdə bildirildi ki, Şükür Nəriman oğlu Həmidov 1975-ci ildə Qubadlı rayonunun Armudlu kəndində anadan olub. 1982-ci ildə Qubadlı rayonunun Başarat kənd tam orta məktəbinin birinci sinfinə gedib. 1990-cı ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub. 1993-cü ildə liseyi bitirib və həmin il Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) daxil olaraq təhsilini davam etdirib. 1995-ci ildə ali hərbi təhsilini başa vuran Ş.Həmidov "N" hərbi hissəsində motoatıcı taqım komandiri kimi xidmətə başlayıb. Daha sonra birlik komandirinin müavini vəzifəsinə qədər yüksəlib.



Tədbiri çıxış edən zabit Elvin Əzizov qəhrəmanımızın şərəfli həyat yolundan, vətənpərvər zabit kimi Vətənə qüsursuz xidmətindən, xüsusilə də Aprel döyüşləri və Vətən müharibəsi zamanı göstərdiyi şücaət və igidliyindən danışdı. "Həm Aprel döyüşləri zamanı, həm də Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda misilsiz qəhrəmanlıq göstərən igid oğullarımızdan biri də polkovnik Şükür Həmidovdur. O, Aprel döyüşləri zamanı işğalda olan Cəbrayıl rayonunda yerləşən Lələtəpə yüksəkliyinin azad olunmasında xüsusi fərqləndiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Ş.Həmidov hər zaman əsgəri ilə çiyin-çiyinə döyüş meydanına atılan, ölümün gözünə dik baxan zabit olub. Vətən müharibəsi zamanı da Cəbrayıl, Füzuli və Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıq nümunələri sərgiləyib. Kədər və eyni zamanda, qürurla qeyd etməliyik ki, polkovnik Ş.Həmidov məhz doğulduğu Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlər zamanı şəhidlik zirvəsinə ucalıb.



Onun qəhrəmanlığı, vətənpərvərliyi hər bir hərbçiyə örnək, hər bir gəncə nümunə olmalıdır", - deyə E.Əzizov bildirdi.

Mərasimdə iştirak edən Yazıçılar Birliyinin üzvü şair Elbrus Qayalı şəhidin əziz xatirəsinə həsr etdiyi şeiri tədbir iştirakçılarına çatdırdı. Sonra Birinci Qarabağ müharibəsində və 44 günlük Vətən müharibəsində torpaqlarımızın azadlığı və suverenliyi uğrunda öz canlarından keçən şəhidlərimizə həsr olunmuş şeirlərin yer aldığı "Ana harayı" adlı kitabını şəhidin ailəsinə təqdim etdi.

Sonda Milli Qəhrəmanın atası Nəriman Həmidov çıxış edərək oğlu ilə bağlı xatirələrini mərasim iştirakçıları ilə bölüşdü. Övladının xatirəsinin daim əziz tutulduğuna görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirdi.

Mərasimdən sonra Aprel döyüşləri zamanı şəhid olan digər hərbçilərimiz də ziyarət olundu, məzarlarına tər güllər düzüldü, ruhlarına dualar oxundu.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

# Aprel şəhidlərinin xatirəsi anılıb



*Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, Aprel döyüşlərinin yeddinci ildönümü ilə əlaqədar Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində anım tədbirləri keçirilib.*

Hərbi qulluqçuların, şəhid ailələri və yaxınlarının, eləcə də ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən anım tədbirlərində şəhidlərimizin məzarları ziyarət edilib, üzərinə əklil və gül dəstələri qoyularaq ehtiram nümayiş etdirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimlərdə Aprel döyüşlərində erməni işğalçılarının cəbhədə törətdiyi təxribatlara Azərbaycan Ordusunun verdiyi layiqli cavabdan, hərbi qulluqçularımızın döyüşlərdə göstərdiyi qəhrəmanlıq və şücaət nümunələrindən danışılıb.

Qeyd olunub ki, 2016-cı ilin aprel ayının ilk günlərində ermənilərin növbəti təxribatlarına cavab olaraq Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-həmlə əməliyyatı nəticəsində 2000 hektardan artıq ərazi azad edilib və daha çox ərazi əməliyyat baxımından bölmələrimizin nəzarətinə keçib. Eyni zamanda, Ağdərə, Füzuli və Cəbrayıl rayonları ərazilərindəki strateji əhəmiyyətli yüksəkliklər işğaldan azad edilib.






Aprel döyüşlərində qazanılan qələbənin davamı olaraq Vətən müharibəsi zamanı Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu döyüş əməliyyatları ilə işğaldan azad edilən torpaqlarımızda üçrəngli bayrağımız dalğalandırılıb, şəhidlərimizin qisası düşməndən alınıb.

Daha sonra hərbi qulluqçular Aprel şəhidlərinin ailələrini ziyarət edib, onların qayğıları ilə maraqlanıblar.

# Ulu Öndər Heydər Əliyevin adının əbədiləşdiyi təhsil ocağı

Azərbaycan tarixində və Azərbaycan xalqının taleyində böyük tarixi şəxsiyyət Heydər Əliyevin cəmiyyət həyatının bütün sahələrini əhatə edən müstəsna xidmətləri olub. Ordu quruculuğu ilə bağlı görülən işlər illər sonra da əhəmiyyətini itirmədi. Dahi şəxsiyyətin böyük uzaqgörənliyi ilə bu mühüm məsələyə hələ Sovet rejimi dövründə başlanılmışdı. Həmin dövrdə milli ordunun yaradılması üçün təməl hazırlamaq vətənpərvər və uzaqgörən şəxsiyyət Heydər Əliyevə nəsib oldu.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə Bakıda Hərbi Lisey yaradıldı, ona görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adı verildi. Ulu Öndərin ölkəmizə rəhbərliyinin bütün dövrlərində bu hərbi təhsil ocağı ən yüksək səviyyədə diqqət və qayğı ilə əhatələnib.



Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra milli ordu quruculuğunda məktəbin məzunları olan peşəkar zabitlərin böyük rolu oldu. Azərbaycan Ordusunun peşəkar hərbi kadrlara olan tələbatını mükəmməl ödəmək, Naxçıvan Muxtar Respublikasında gənclərin hərbi təhsil almasına əlverişli şərait yaratmaq məqsədilə Ulu Öndər Heydər Əliyevin 13 mart 1998-ci il tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı fəaliyyətə başladı. 1999-cu il oktyabrın 13-də filialın yeni tədris korpusunun açılışında iştirak edən Ulu Öndər Heydər Əliyev hərbi təhsil ocağının əhəmiyyətini vurğulayaraq deyib: "Naxçıvanda, bu xırda torpaqda tarixən hərbə, hərbi peşəyə çox yüksək həvəs olubdur. Ona görə də burada olan gənclərin hərbi peşəyə cəlb etmək üçün hərbi liseyin filialının yaradılması çox zəruri idi... Ümidvaram ki, Naxçıvan filialı genişlənəcəkdir. Buraya 100 yox, 200, bəlkə ondan daha artıq gənc qəbul edib hazırlamaq mümkündür ki, bizim zabit kadrlarımız daha çox olsun".



2002-ci il iyunun 17-də Ulu Öndər Heydər Əliyev qurucusu olduğu hərbi təhsil ocağına gəlir. Azərbaycanın gələcəyi olan gənclərə üzünü tutaraq deyir: "Mən sizə baxaraq Azərbaycanın gözəl gələcəyini görürəm. Azərbaycanın gələcəyi gənclərə məxsusdur. Biz Azərbaycanın gələcəyini gənclərə etibar edirik. Əziz övladlarımız, sizə etibar edirik. Siz isə bizim bu ümidlərimizi, arzularımızı doğrultmalısınız. İnanıram ki, doğruldacaqsınız". Həmin görüş iştirakçılarından biri, liseyin kursantı olmuş polkovnik-leytenant Hikmət Hacıyev hazırda bu doğma ocaqda xidmətini davam etdirir: "Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri böyükdür. Ulu Öndərin çoxsaylı xidmətləri arasında hərbi liseyin təsis edilməsi xüsusi önəm daşıyır. Mən deyərdim ki, bu çox nadir tarixi hadisə idi ki, biz həm birinci kursda, eyni zamanda, III kursda təhsil alanda Ulu Öndər liseyimizi ziyarət etdi. Bu görüş biz məzunlar üçün çox qürurverici bir an idi. Ulu Öndərin hərb peşəsinə olan hörməti və ehtiramı hər zaman bizlərə stimul verib. Bunun məsuliyyətini hər zaman dərk etmişik. Ulu Öndər bizləri sonda təbrik etdi və ümidvar olduğunu bildirdi ki, qısa zamanda Naxçıvan filialı genişlənəcək.

Mən bu liseyin ilk məzunlarından biriyəm və doğma liseyimdə xidmət etməyimlə qürur duyuram. Ulu Öndərin siyasətini uğurla davam etdirən dövlət başçısı İlham Əliyevin 27 fevral 2004-cü il tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı ləğv edilərək onun əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradıldı. Bu tarixi qərarın verilməsində məqsəd Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsini əbədiləşdirmək, Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün hərbi kadr hazırlığı sistemini təkmilləşdirmək və milli ordunun peşəkar kadrlara olan tələbatının ödənilməsi işini yaxşılaşdırmaq idi. Beləliklə, hərbi liseyin ərazisi genişləndirildi, ərazidə Ulu Öndərin büstü ucaldıldı. Liseyin maddi-texniki bazası ilbəil zənginləşdirildi. Bu gün liseyimizdə fənlərin müasir tələblər səviyyəsində tədrisi üçün hər bir şərait mövcuddur. Fənn kabinələri, laboratoriyalar, elektron lövhəli siniflər, STEAM kabinəsi və s. Ərazidə kursantların fiziki hazırlığı üçün yaradılan idman meydançalarını da xüsusilə qeyd etmək lazımdır. Və illər keçdi, Ulu Öndərin Naxçıvanda ilk hərbi təhsil ocağının yaranması ilə bağlı verdiyi qərarın əhəmiyyəti torpaqlarımızın işğaldan azad edilməsi ilə bir daha öz təsdiqini tapdı. 2020-ci ildə 27 sentyabrda başlanan və 44 gün davam edən Vətən müharibəsində müzəffər Azərbaycan Ordusunun şücaəti ilə düşmən işğalında olan torpaqlarımız azad olundu. Vətən uğrunda canlarını fəda edən, şəhidlik zirvəsinə ucalan, qəhrəmanlıq göstərmiş döyüşçülər arasında hərbi liseyin məzunları da var. Adlarını İkinci Qarabağ müharibəsinin şanlı zəfər tarixinə əbədi həkk etmiş şəhid və qazilərimizin qəhrəmanlığı kursantlar üçün igidlik və vətənpərvərlik nümunəsidir.

2002-ci ildə müəllim və zabitlər qarşısında ciddi tapşırıqlar qoyan Ulu Öndər Heydər Əliyev qeyd etmişdi ki, burada çox şey müəllim-zabit heyətindən asılıdır. Gərək onların özləri vətənpərvər olsunlar, Azərbaycanın müstəqilliyinə, dövlətçiliyinə sədaqətli olsunlar. Bu, əsas şərtdir.

Vurğulamaq istərdim ki, Ulu Öndərin bizim qarşımızda qoyduğu tapşırıqlar yerinə yetirilir, kursantların təlim və təhsili üçün bu gün liseydə 100-dən artıq müəllim və zabit heyəti çalışır. Heydər Əliyev ideyalarına sadiq, Vətəninə, xalqına sədaqətli, hərbi hazırlıq proqramı üzrə ümumi hərbi biliklərə və praktiki vərdişlərə yiyələnmiş, intizamlı hərbi qulluğa və zabit ixtisasına sevgi hissi bəsləyən, öz Vətəninin müdafiəsinə hər an hazır olan gənclərin yetişdirilməsi davam etdirilir".

Ömrünün 22 ilini hərbi liseydə kursantların təlim-tərbiyəsinə həsr etmiş əməkdar müəllim Məryəm Vəlibəyova qeyd edir ki, lisey təzə yaranında çətinliklərimiz çox idi. Amma bu çətinliklər nə bizi, nə yenicə liseyə qəbul olmuş gəncləri qorxutdu. Bu gün liseyimizdə kursantların təhsil alması, yaşaması üçün yüksək səviyyədə şərait yaradılıb. Biz də çalışırıq ki, həmin şəraitdən istifadə edərək kursantlarımızın peşəkar zabit kimi yetişməsində əlimizdən gələni əsirgəməyək. Müəllim olmaq nə qədər şərəflidirsə, hərbi liseydə müəllim kimi çalışmaq, Azərbaycan Ordusunun gələcək ixtisaslı zabit kadrlarının hazırlanmasında fəaliyyət göstərmək biz müəllimlər üçün ikiqat şərəfdir.

Onu da deyə bilərik ki, hərb peşəsinə maraq 90-cı illərdən etibarən daha da artıb. Çünki həmin dövrün uşaqları gözlərini açandan ətraflarında hərbçi görüblər, müqəddəs zirvəyə ucalan şəhidləri tanıyıblar, qəhrəmanlıq nümunəsi göstərən igidlərlə eyni zamanədə yaşayıblar. Belə oğulları özlərinə qəhrəman seçiblər, örnək götürüblər. Azərbaycan Ordusunda xidmət etmək məqsədi olubsa, bu məqsədə gətirən səbəblər sırasında torpaqlarımızın işğalda olması, xalqımızın başına gətirilən faciələr də yer alıb. Ailələr var ki, oğul övladlarının hamısı məhz bu peşəni seçib. Musahibimiz Babazadə Sahil də qardaşı Hüseynin tutduğu yolu seçib. Hüseyn Babayev hazırda Heydər Əliyev adına Hərbi İnstitutun ikinci kursunda təhsil alır. "Bu peşəni seçməkdə atamın da rolu olub. Qohumum şəhid leytenant Vəli Quliyevin igidliyi, vətənpərvərliyi isə mənim üçün örnəkdir. 30 illik həsrətə 44 gündə son qoyan ordumuzla fəxr edirəm. Ordumuza peşəkar, bilikli zabitlər hər zaman gərəkdir. Qarşıma qoyduğum məqsədə nail olacağıma əminəm. Biz qardaşlar bu yoldan dönməyəcəyik", - kursant Sahil Babazadə deyir.

Kursant Seymur Əliyev Bakı şəhərindəndir: "Təhsilimlə əlaqədar gəldim Naxçıvana. O qədər isti münasibət göstərirlər ki, özümü evimdə hiss edirəm. Həm də yaxşı dostlar qazanmışam. Burada vaxtımızı yaradılan şəraitdən faydalanaraq dərslərimizi yaxşı oxumağa, fiziki cəhətdən özümüzü yetişdirməyə sərf edirik. Çünki peşəkar bir zabit həm də yüksək biliyə, geniş dünyagörüşünə sahib olmalıdır. Torpaqlarımızın hər qarışı uğrunda qan tökülüb. Azad olunmuş torpaqları gələcəkdə qorumaq missiyası bizim üzərimizdədir".




Hərb peşəsində ilkin addımlarını atmaq üçün Toğrul İsmayılov Zaqataladan Naxçıvana gəlib. Atası da hərbçi olub. Kiçik yaşlarından atasının əyninə yaraşdırdığı, sonra sevdiyi formanı artıq özü geyəcək. Hamımızın fəxri general-mayor Polad Həşimov isə Toğrulun örnək aldığı qəhrəmandır.

Nahid Əliyev Naxçıvan şəhərindəndir. Atası Afayət Əliyev də ömrünü hərb peşəsinə həsr edib. Bu baxımdan Nahidin də seçimini dəstəkləyib. Kursant forması ilə fərəhlənən Nahidin arzuları çoxdur.

Kursant Güləli Əliyev deyir ki, Vətən müharibəsində şəhid verdik. Bu hadisə məni hərb peşəsinə daha da sövq etdi. Arzum şəhid qanı axan o torpaqlarda xidmət etmək və göz bəbəyi kimi əmanəti qorumaqdır.

Bayram Tahirovun əmisi, hərbi liseyin məzunu Qurban Tahirov Vətən müharibəsinin iştirakçısı olub. Hazırda xidmətini davam etdirir. Əmisinin seçdiyi yol, müharibədə göstərdiyi qəhrəmanlıq nümunələri Bayramı hərb peşəsini seçməyə sövq edib. Bayramın rəssamlıq qabiliyyəti də var. Deyir Şuşa alınanda sevincimi çəkdiyim rəsmlə ifadə etdim. Bu rəsmdə Azərbaycan Ordusunun Şuşaya girişi təsvir olunub.

Seymur Əliyev Bakı şəhərindəndir. Filmlərdən gördükləri, kitablardan oxuduğu hadisələr uşaq yaddaşına sirayət edib. Hərbçi olmağı qərara alıb. Liseydə təhsil aldığı qısa müddət ərzində həm elmi biliyini artırıb, həm fiziki cəhətdən özünü yetişdirib.

Bildirək ki, fəaliyyətə başladığı gündən üç mindən çox kursant liseyi bitirib. 70-dən çox kursant Rusiyada, 100-dən çox kursant Türkiyədə ali hərbi təhsilini davam etdirib. Vətən müharibəsində liseyin məzunu olmuş 59 zabit qəhrəmanlıq nümunəsi göstərərək şəhidlik zirvəsinə ucalıb. 2020-ci ildən əvvəl və sonra düşmən təxribatının qarşısını alarkən şəhid olan hərbçilər sırasında da liseyin məzunları var. Hazırda ordu sıralarında xidmətini davam etdirən hərbçilərlə yanaşı, orta məktəblərdə öz döyüş təcrübəsi və hərbi biliyini gənclərə aşılayan Vətən müharibəsi iştirakçıları olan hərbi rəhbərlər də az deyil.

Ulu Öndər Heydər Əliyev liseydə olarkən kursantlara yaxşı təhsil almağı, peşəkar hərbçi olmağı, Vətəni qorumaq peşəsinə yaxşı yiyələnməyi, yüksək rütbəli zabit olmağı arzulamışdır. İllər onu göstərdi ki, bəslənilən ümidlər özünü doğrultmuş, arzular gerçəkləşmişdir. Ulu Öndər Heydər Əliyevin ideya-siyasi kursunu layiqincə davam etdirən dövlət başçısı İlham Əliyevin komandanlığı ilə ordumuzun qüdrəti artır. Qalib ordumuzda xidmət etmək istəyən gənclərin sayı da həmçinin. Ulu Öndərin adını daşıyan hərbi lisey hələ neçə-neçə Vətən müdafiəçilərinin yetişməsinə öz töhfəsini verəcək. Ölkəmizdə fəaliyyət göstərən hər iki hərbi lisey Ulu Öndər Heydər Əliyevin şah əsəridir. Hansı ki, bu əsər illər keçsə də, öz aktuallığını və əhəmiyyətini heç zaman itirməyəcək!

**Ruhiyyə RƏSULOVA**
**Naxçıvan televiziyasının baş redaktoru**

# Gəncə Hərbi Hospitalının yaranmasının 30 illiyi qeyd edildi



*Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra bu müstəqilliyi qoruyası, dövlətin ərazilərini müdafiə edəsi ordu yaradılmağa başladı. Ermənistanın elan etmədən başladığı müharibədə həm ordu yaratmaq, həm ordunu formalaşdırmaq, həm də döyüşmək çətin idi. Xalq bu prosesdə yaxından iştirak edirdi.*

Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının Müdafiə Nazirliyi yaradıldı, Azərbaycanda yerləşən sabiq SSRİ-yə məxsus hərbi hissələr Azərbaycan Ordusunun tərkibinə daxil edildi. 31 mart 1993-cü il tarixli əmrlə Azərbaycan Ordusuna daxil edildiyinə görə bu tarix "N" hərbi hissəsinin yaranması günüdür.

Ermənistanla sərhəddə yerləşən bir neçə rayonun müdafiəçilərini ehtimal edilən döyüş yaralanmalarından müalicə etmək, döyüş olmayan vaxtlarda ehtiyacı olanların sağlamlığının qayğısına qalmaq üçün Gəncədə hərbi hospital yaradıldı və qısa müddətdə tibb personalı ilə komplektləşdirildi. Peşəkar hərbçi həkimlər döyüşlərdə yaralananları ölümdən xilas edir, gərəkli müalicələrlə onların yenidən döyüşlərə qayıtmasını təmin edirdilər. Bu da Ermənistanın elan etmədən başladığı ədalətsiz müharibədə hərbi hospitalın iştirakı idi.

Hərbi hissəyə təyin edilmiş hərbi hissə komandirləri tibb xidməti polkovnikləri Yusif Mehtiyev, Asif Qurbanov, Şahrəddin Balacanov, Anar Məmmədov, Bəhmən Əhmədov hərbi hissənin formalaşmasında, tibb xidmətinin yaxşılaşdırılmasında, inkişafında, yüksəldilməsində, hərbi hissənin inkişafında böyük işlər gördülər, yaxşı ənənələr yaratdılar.

Polkovnik Asif Qurbanov Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamı ilə "Əməkdar həkim" adına layiq görüldü. Bu, təkcə polkovnik Asif Qurbanova deyil, həm də Gəncə hərbi hospitalının tibb personalına ehtiramın təzahürü idi.

Atəşkəs dövründə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ordu quruculuğunun elmi əsaslarla təşkilini uğurla davam etdirərək bir sıra fərman, qərar, sərəncamlar ilə ordu quruculuğunun təkmilləşməsini və sosial müdafiəsinin gücləndirilməsini əhatə edən tədbirlər gördü. Belə tədbirlərdən biri də Gəncədə hərbi hospitalın yeni şöbəsinin inşa edilməsi oldu.

2020-ci ilin iyulunda düşmən Tovuz rayonu istiqamətində atəşkəsi pozanda hərbi hissənin həkimləri təyinat yerlərinə çıxarıldı, yaralılara yüksək dərəcədə tibbi yardım göstərildi. Bu, yaralıların operativ müddətdə müalicə olunmasını təmin etdi.



Hərbi hissə İkinci Qarabağ müharibəsində də yüksək peşəkarlıqla iştirak etdi, Qələbə naminə fədakarlıqla işlədi. Qubadlı rayonunda "N" hərbi hissəsinin tibb məntəqəsinin gücləndirilməsi üçün tibbi personal ezam edildi, şəxsi heyət tərəfindən Qubadlı rayonunda hərbi-səhra hospitalı açıldı, Şuşa şəhərində hərbi-səhra hospitalı fəaliyyət göstərdi, hərbi-səhra hospitalı Kəlbəcər rayonuna köçürüldü və mobil-səhra hospitalının fəaliyyəti bu gün də davam edir. Hərbi səhra hospitalında yüksək ixtisaslı tibb xidməti təşkil olundu, yaralılara cərrahiyyə əməliyyatları keçirildi, yüksək ixtisaslı yardım göstərildi.



Şəxsi heyətin bir qismi müntəzəm olaraq Kəlbəcər rayonunda mobil səhra hospitalının fəaliyyətinə köməklik göstərir. Hərbi hissənin həkim mütəxəssisləri işğaldan azad edilmiş rayonlarda yerləşən hərbi hissələrin tibb məntəqələrinin təşkilində, hərbi qulluqçuların tibbi müayinəsinin təşkilində iştirak edirlər.

Hərbi hissə bu gün də Azərbaycan Ordusunun hərbi qulluqçularının sağlamlığının qorunub saxlanılmasında böyük əmək sərf edir. Bunlar hərbi hissənin müxtəsər tarixidir. Bu tarix Azərbaycan Ordusunun tarixinin kiçik bir hissəsidir.

Hərbi hissənin yaradılmasının 30 illiyi ərəfəsində hərbi hissənin keçmiş rəisləri, zabitləri, həkimləri, tibb işçiləri 31 mart tarixinin işığına toplaşdı. 30 ilin o üzündə qalanlar qürurla, kövrəkliklə xatırlandılar.

Hərbi hissənin ilk rəislərindən olmuş polkovnik Yusif Mehtiyev hərbi hissənin yaradılmasından, əməkdar həkim polkovnik Asif Qurbanov onun necə formalaşmasından, Anar Məmmədov hospitalın komplektləşdirilməsindən danışdılar. İlk baxışda böyük görünən 30 rəqəmi mahiyyət baxımından böyük deyilmiş. Hərbi hissənin bugünkü uğurlarının başlanğıc tarixi olan 30 il hamı üçün nə qədər əziz imiş.

Elxan Muradov o illərdə çətinliklərin dövlətə, dövlətçiliyə sədaqətlə, peşə sevgisi ilə aradan qaldırıldığını da qeyd etdi. Bu görüş hərbi hissənin yaradılmasının 30 illik yubileyindən əvvəl veteranların könül görüşü idi...

İkinci Qarabağ müharibəsində hərbi hissənin zabiti Rövşən Babayev oğlu ilə birlikdə döyüşüb.

Hərbi hissənin vəzifəli şəxslərinin tibbi və digər maddi vəsaitlərin, əmlakların, dərman preparatlarının alınmasına, saxlanmasına və istifadəsinə tələbkarlığı artıb. Gənc əsgərlərin çağırış dövrlərində şəxsi heyət tərəfindən ilkin müayinəsinin aparılması təmin edilir, qarnizonun hərbi hissələrinin şəxsi heyətinə müayinələr və dispanserizasiyalar keçirilir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev deyirdi: "Bu, sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik". Gəncə Hərbi Hospitalının tibbi heyəti Ulu Öndərin bu tövsiyələrini fəaliyyətlərinin başlıca amillərindən biri bilir.



Hərbi hospital kimi yaranan "N" hərbi hissəsi Birinci Qarabağ müharibəsində də, İkinci Qarabağ müharibəsində də, bu iki müharibə arasındakı dövrdə də ordumuzun şəxsi heyətinə məsuliyyətlə xidmət edib. Tibb personalı hər bir zabitin, gizirin, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun, əsgərin sağlamlığının əsgəri olub.



Birinci Qarabağ müharibəsinin ağrıları Gəncə Hərbi Hospitalının üzərinə düşürdü. Döyüşlər Murovdağ istiqamətində getdiyindən yaralılar bu hospitala gətirilirdi. Peşəkar cərrahlar yüzlərlə ağır cərrahi əməliyyat aparmışdı, yaralı döyüşçülərin əksəriyyəti ölümdən xilas edilmişdi. Birinci Qarabağ müharibəsində hospitalın şəxsi heyəti böyük fədakarlıqlar göstərmişdi...

Bu günlərdə hərbi hissənin yaradılmasının 30 illiyi oldu. 30 adi rəqəm deyil, bu rəqəm yüzlərlə hərbi qulluqçunun sağlamlığı ilə bağlı aparılan tibbi mübarizənin il göstəricisidir. Hərbi hissənin yaradılmasının 30 illiyi yüksək ovqatla qeyd edildi.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət Himni səsləndirildi.

Polkovnik Hüseyn Qaçayev hərbi hissənin yaranma tarixindən, fəaliyyətindən, ordu quruculuğunda iştirakından danışaraq qeyd etdi ki, belə tədbirlər həm tarix kimi, həm də vətənpərvərlik duyğularının yüksəldilməsi kimi əhəmiyyətli olur. Şəxsi heyət belə tədbirləri gələcək fəaliyyət üçün böyük etimad hesab edir.

Vətən müharibəsi iştirakçısı İlqar Əliyevin anası Firuzə Əliyeva çıxışında ordumuzun qüdrətindən, İkinci Qarabağ müharibəsində qazanılan Zəfərdən, şəhidlərdən danışaraq qeyd etdi ki, torpaq şəhidliklə qorunur. Azərbaycanda şəhidliyə və şəhidlərə yüksək dövlət qayğısı da gənc nəslin vətənpərvərlik duyğularını yüksəldir. Şəhid analarının təsəllisi Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə torpaqlarımızın işğaldan azad edilməsi oldu. Bu günün əsgərləri də Vətəni şəhidlərimizin sevdiyi kimi sevəcəklər.

Şəhid Rüstəm Hümbətovun atası Səlim Hümbətov İkinci Qarabağ müharibəsində qazanılan Zəfərdən, döyüşlərdən danışaraq dedi ki, müharibədə hər döyüşçü qələbə üçün döyüşür. Onlar bilirlər ki, döyüşləri qələbə ilə başa çatdırmalıdırlar. Müharibədə yaralanma da olur, şəhidlik də. Vətən naminə şəhidlik qələbəyə yaxınlaşdırır. Mənim oğlum da qələbə naminə şəhid oldu. Təki Vətən yaşasın, əziz zabitlər, əziz tibb işçiləri. Əminəm ki, bu günün əsgərləri Zəfər qazananların döyüş yolunu qətiyyətlə davam etdirəcəklər.

Mayor Abuzər Abuzərov hərbi hissənin Vətən müharibəsində xidmətlərindən danışdı, şəxsi heyətin qələbə naminə qətiyyətli fəaliyyətinin döyüşlərin gedişində əhəmiyyətli olduğunu qeyd edərək dedi ki, tibb personalımız İkinci Qarabağ müharibəsində əsl fədakarlıqlar göstərdi. Hospitalımızda müalicə almış hərbi qulluqçularımız Zəfərdən sonra həkimlərimizlə, tibb bacıları ilə görüşməyə gəlirlər. Ehtiram görüşü kimi...

Müdafiə Nazirliyi Tibb İdarəsinin nümayəndəsi polkovnik Natiq İbayev hərbi hissənin şəxsi heyətini yubiley münasibətilə təbrik etdi.

Xidmətdə fərqlənənlərə fəxri fərmanlar təqdim olundu.

Tədbirin sonunda iştirakçılara Gəncə Regional Mədəniyyət İdarəsi Gəncə şəhər Uşaq İncəsənət Məktəbinin kollektivinin konsert proqramı təqdim edildi. Vətənpərvərlik mahnıları toplaşanları bir daha əmin etdi ki, güclü Azərbaycan Ordusunun bütün strukturları daha da təkmilləşəcək, Azərbaycan dövlətçiliyini daha böyük məsuliyyətlə qoruyacaqdır.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

**(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)**

## Mövzu: Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir

**Suallar:**

**1. Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir.**

**2. Müasir Azərbaycan Ümummilli Liderimiz Heydər Əliyevin əsəridir.**

### Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir

Tarix yalnız dahi şəxsiyyətlərin nurlu əməlləri sayəsində nəsillərin yaddaşına həkk olunur. Azərbaycan xalqı dünya tarixinə neçə-neçə böyük mütəfəkkirlərlə yanaşı, Cavanşır, Babək, Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Uzun Həsən, Şah İsmayıl Xətai, Nadir şah kimi qüdrətli dövlət xadimləri də bəxş etmişdir.

Əsrlər keçdikdən sonra - XX yüzillikdə xalqımız daha bir dahi şəxsiyyət yetirdi. Dünyanın Atatürk, Vaşinqton, Nehru kimi nadir tarixi simaları sırasında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev şəxsiyyəti öz layiqli yerini tutdu. Dünya tarixinin başqa dahi şəxsiyyətləri kimi, Ulu Öndər Heydər Əliyev də öz xalqının, doğma Vətəninin müqəddəratının həll olunduğu çox çətin mübarizələrlə, kəskin ziddiyyətlərlə və ağır sınaq məqamları ilə dolu olan bir dövrdə - XX yüzilliyin doğurduğu tarixi şəraitdə yetişmişdir.

1923-cü il mayın 10-da Azərbaycan Respublikasının Naxçıvan şəhərində dünyaya göz açan Ulu Öndər ilk təhsilini Naxçıvanda alıb. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) memarlıq fakültəsinə daxil olub. İkinci Dünya müharibəsinin başlanması ona təhsilini başa çatdırmağa imkan verməyib. 1941-1945-ci illərdə Naxçıvan Muxtar Respublikası Xalq Daxili İşlər Komissarlığında arxiv şöbəsinin məxfi hissəsinin müdiri, Naxçıvan MSSR Xalq Komissarları Sovetində ümumi şöbənin müdiri vəzifələrində işlədikdən sonra 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilib. SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin Leninqraddakı (Sankt-Peterburq) Rəhbər Kadrların Hazırlığı Məktəbində təhsil aldıqdan sonra, 1950-ci ildə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsində bölmə rəisi təyin edilib. Hər zaman təhsilə böyük önəm verən Ulu Öndər Heydər Əliyev 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin (Bakı Dövlət Universiteti) tarix fakültəsinin qiyabi şöbəsini bitirib. 1967-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə təyin edilib və həmin ildə ona general-mayor hərbi rütbəsi verilib. 1969-cu ildə - Azərbaycan SSR-də həyatın bütün sahələrində dərin tənəzzülün hökmranlıq etdiyi bir şəraitdə Ulu Öndər Heydər Əliyev Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir. Tarixi inkişafın sonrakı gedişi sübut etdi ki, bugünkü yeni, müstəqil Azərbaycan Respublikasını Ulu Öndər Heydər Əliyev hələ o zaman qurmağa başlamışdı.

Sovet rejiminin bütün xüsusiyyətlərinə dərindən bələd olan və zəngin idarəçilik təcrübəsi qazanmış Ulu Öndər Heydər Əliyev Sovet Azərbaycanını düşmüş olduğu ağır vəziyyətdən çıxarmaq üçün ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırladı və  icrasına başladı. Azərbaycan xalqının tarixində Ulu Öndər Heydər Əliyev dövrü başlandı. Ulu Öndər Heydər Əliyev Sovet İttifaqı kimi böyük bir dövlətin zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək Azərbaycanı tərəqqi yoluna çıxarmaq siyasəti yeritməyə başladı.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirdiyi bütün əzəmətli quruculuq işlərinin çox böyük tarixi əhəmiyyəti ondan ibarət idi ki, xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı. Bu, əslində, XX yüzilliyin 70-ci illərində Azərbaycan xalqının milli-azadlıq hərəkatının yeni mərhələyə - yüksəliş mərhələsinə daxil olması demək idi. Sovet imperiyasının dağıldığı dövrdə Azərbaycan SSR artıq öz inkişaf səviyyəsinə və çoxsahəli iqtisadiyyatına görə SSRİ-nin müttəfiq respublikaları içərisində özünü yaşatmağa qadir ola biləcək ikinci respublika idi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ildə ölkə rəhbərliyinə qayıdışından sonra müstəqil Azərbaycanın əsas hədəflərindən biri kimi milli və bəşəri dəyərlərə söykənən hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində real addımlar atıldı, ölkənin gələcək demokratik inkişaf yolu müəyyənləşdi, insan hüquq və azadlıqlarının bərqərar olması üçün münbit ictimai-siyasi şərait yaradıldı, sahəvi qanunlar işlənib hazırlandı, qanunçuluq möhkəmləndirildi, hüquqi islahatlar həyata keçirildi. Ulu Öndərin formalaşdırdığı azərbaycançılıq fəlsəfəsi milli dövlətçiliyimizin ideya əsasını təşkil edərək dünya azərbaycanlılarının həmrəyliyi üçün zəmin yaratdı. Son yüz ildə çox ciddi məsələ kimi özünü qabarıq göstərən milli dövlətçilik problemi Ulu Öndər Heydər Əliyevin gərgin və ardıcıl fəaliyyəti nəticəsində elmdən, nəzəriyyədən əməli siyasət və praktiki həyat müstəvisinə keçirildi.

Azərbaycan Respublikasında müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Ulu Öndərin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir.

Azərbaycan Respublikasının dünya miqyasında neft-qaz hasil və ixrac edən ölkəyə çevrilməsi, milli neft strategiyasının uğurla həyata keçirilməsi, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələrin bağlanması, neft sənayesinin müasir tələblərə uyğun infrastrukturunun qurulması, neftin Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Novorossiysk boru kəmərləri vasitəsilə şaxələnmiş şəkildə nəqli bilavasitə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xidmətləridir.

Ulu Öndərin vaxtilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılması ilə həyata keçirməyə başladığı müdrik siyasəti milli ordumuzun formalaşması və Azərbaycan Silahlı Qüvvələrinin yaradılması mərhələlərindən keçərək onun nəinki Cənubi Qafqazda, dünyada aparıcı hərbi qüvvə olmasına gətirib çıxarmışdır.

Ana dilimizin dövlət dili kimi tətbiqində, onun imkanlarının genişləndirilməsində və Azərbaycan xalqının ən böyük sərvəti kimi dəyərləndirilməsində Ümummilli Lider Heydər Əliyev şəxsiyyətinin rolu danılmazdır. Azərbaycan mədəniyyətinin və zəngin tarixi irsimizin dünya ictimaiyyətinə tanıdılması Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Məhəmməd Füzulinin 500 illik və "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileylərinin UNESCO səviyyəsində keçirilməsi Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edərək beynəlxalq mədəni ictimaiyyətlə yeni əməkdaşlıq formalarının bərqərar olmasına gətirib çıxarmışdır.

### Müasir Azərbaycan Ümummilli Liderimiz Heydər Əliyevin əsəridir

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev şəxsiyyətinin Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri vardır. 1991-ci ilin 18 oktyabrında Azərbaycan xalqının Ümummilli Llideri Heydər Əliyevin də əsas təşəbbüskarlarından biri kimi imza atdığı "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktı" ilə ölkəmizin istiqlaliyyəti bütün dünyaya bəyan edilmişdir. 1991-ci ilin oktyabrından 1993-cü ilin iyununadək ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər, eyni zamanda, ölkənin müstəqilliyi üçün real təhdidlərin meydana çıxması, vətəndaş qarşıdurması meyillərinin güclənməsi, xaos və anarxiya mühitinin dərinləşməsi göstərmişdir ki, ölkəni yaranmış acınacaqlı vəziyyətdən yalnız Ulu Öndər Heydər Əliyev kimi müdrik və uzaqgörən şəxsiyyət xilas edə bilər. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 1993-cü ildə xalqın təkidli çağırışına cavab verərək hakimiyyət sükanı arxasına keçmiş, ölkədə ictimai-siyasi sabitliyi, qanunçuluğu bərpa etmiş, eyni zamanda, insan hüquq və azadlıqlarının təminatına xidmət edən hüquqi islahatların müəllifi olmuşdur. Mürəkkəb şəraitdə xalqın səsinə səs verərək hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev respublikanı milli müstəqilliyin itirilməsi təhlükəsindən qurtarmış, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil olmuşdur. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında hakimiyyət boşluğu qısa müddətdə aradan qaldırılmış, respublikanın müxtəlif bölgələrində dövlətçiliyə qəsdlər təşkil edən cinayətkar ünsürlər xalqın dəstəyi ilə zərərsizləşdirilmiş, vətəndaş sülhü və həmrəyliyinin təminatı istiqamətində ciddi addımlar atılmışdır. Bütün bunlar Azərbaycanda ardıcıl və sistemli olaraq hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinə başlamaq imkanı yaratmışdır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev dövlət müstəqilliyimizi əbədi və dönməz etdi, ölkəmizə sabitlik, sülh və əmin-amanlıq, siyasi islahatlar, demokratikləşmə, iqtisadi yüksəliş, sosial inkişaf gətirdi. Azərbaycan Respublikasının zorla cəlb olunduğu Ermənistan-Azərbaycan arasında mövcud olmuş münaqişədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, Azərbaycan Respublikasını tənəzzül etmiş dövlətdən inkişaf edən ölkəyə çevirdi. Respublikamızın beynəlxalq əlaqələrini möhkəmləndirərək gələcək inkişafa hesablanmış neçə-neçə layihələrin, xüsusilə, uğurlu neft strategiyasının təməlini qoydu. Azərbaycan Respublikasının günbəgün beynəlxalq nüfuzu artmağa, iqtisadiyyatımızın müxtəlif sahələrinə külli miqdarda xarici sərmayələr yatırılmağa başlanıldı.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Böyük İpək Yolunun mühüm mərkəzi olan, mədəniyyətlərin və sivilizasiyaların qovşağında yerləşən ölkəmizi dünyada tolerantlığın və dözümlülüyün məkanı kimi tanıtmışdır. Onun beynəlxalq səfərləri, siyasi, ictimai və dini xadimlərlə görüşləri ölkəmizin yeni imicinin formalaşmasına xidmət edirdi.

Ulu Öndər Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri dünya azərbaycanlılarının şüarı olmaqla, soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilmişdir. Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər ərzində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan diasporu təşkilatlanmış, inkişaf etmiş və öz tarixi Vətəni ilə sıx bağlılığını nümayiş etdirmişdir. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikasını öz Vətəni sayması, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz Ulu Öndər Heydər Əliyev fəaliyyətinin nəticəsidir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycan Respublikasının müasir tarixini əhatə edən, zaman baxımından bir qərinəlik, mahiyyətcə isə əhəmiyyəti əsrlərlə ölçülən mərhələsində həm dünya şöhrətli uzaqgörən siyasi və dövlət xadimi, həm mahir strateq və yenilməz sərkərdə, həm iqtisadi-mədəni intibahın memarı və milli-mənəvi mədəniyyətin böyük hamisi, həm yorulmaz vətənpərvər və polad əqidəli vətəndaş, həm də görkəmli mütəfəkkir və milli ziyalılığın öndəri kimi titanik fəaliyyət göstərmişdir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətləri olmuş, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz töhfələr vermişdir.  Tarixə Azərbaycan xalqının Ümummilli Lideri kimi daxil olmuş bu əvəzolunmaz insan liderlərə məxsus ən ali keyfiyyətlərə malik idi. Tanrı ona hər bir üstünlüyü bəxş etmişdi: yaraşıqlı boy-buxun, təbəssüm və sərtliyi sintez edən sima, gələcəyi dəqiq müəyyənləşdirən, tarixin nizamını təmin edən təfəkkür, parlaq natiqlik məharəti, qüdrətli siyasi iradə, güclü dövlətçilik duyğusu, çevik idarəetmə məharəti, insanların qəlbinə yol tapmaq, xalqın qüdrətinə arxalanmaq bacarığı! Bir sözlə, Ulu Öndər Heydər Əliyev qalibiyyət əzmiylə yaşayan və dövləti cəsarətlə idarə edən möhtəşəm bir şəxsiyyət idi. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev atasından qalan nadir şəxsiyyətlərə məxsus bu keyfiyyətləri şərəflə daşıyır və böyük əzmlə dövlət idarəçiliyində tətbiq edir, tarixin yeni tələblərinə uyğun olaraq təkmilləşdirib inkişaf etdirir. Azərbaycan Respublikasının dünyadakı nüfuzlu, vüsətli siyasi və iqtisadi yüksəlişi sübut edir ki, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev qalibiyyət əzmini dövlət idarəçiliyinin sarsılmaz baş xətti kimi inadkar bir inamla qoruyub saxlayır. Xalqın etimadına söykənən siyasi fəaliyyəti ilə ərazi bütövlüyümüzü bərpa etdi və eyni zamanda, ölkəni ən qabaqcıl dövlətlər sırasına yüksəltməkdə davam edir. Məhz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xidmətləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə inamla irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, qanunun aliliyinin təmin edilməsi, dilindən, dinindən asılı olmayaraq, bütün vətəndaşların hüquq və azadlıqlarının qorunması üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradılıb.

Tarixdə izi olan böyük şəxsiyyətlər insan ömrünün zaman adlı sədlərini dəf edərək əbədiyaşarlıq hüququ qazanırlar. Məhz onların qurub yaratdıqları, miras qoyduqları irs xalqlarının gələcəyinə işıq salıb, sonrakı tarixini, dünyadakı yerini müəyyənləşdirib. Belə dühalardan biri də şərəfli və mənalı ömür yolunu Azərbaycanın nicatına, milli dövlətçiliyimizin dirçəlməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna qovuşmasına həsr edən Ulu Öndər Heydər Əliyevdir. Azərbaycan xalqının Ümummilli Liderinə çevrilmiş bu dahi insanın adı ölkəmizin simvoluna, əməlləri isə şəxsi hünər rəmzinə çevrilmiş, həyat və fəaliyyəti doğma Vətəninə və torpağa məhəbbət, sədaqət meyarı olmuşdur. Ona görə də Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan hər bir tarix bizim üçün müqəddəsdir. 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə ehtiramın təzahürüdür. "Heydər Əliyev İli" Qarabağ üzərində dövlət suverenliyinin bərpası və dövlət sərhədlərimizin bərpası ili kimi də tarixə düşəcəkdir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Şəhidin xatirəsinə həsr olunan anım mərasimi keçirilib





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələn Sədi Musayevin xatirəsinə həsr olunan anım mərasimi keçirilib.

Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, şəhidin ailə üzvləri, yaxınları, eləcə də döyüş yoldaşlarının iştirak etdiyi tədbirdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Anım mərasimində çıxış edənlər Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı tarixi qələbədən, bu zəfərin qazanılmasında igid oğullarımızın göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrindən söz açıblar.

Tədbir iştirakçılarına S.Musayevin şərəfli həyat yolu haqqında məlumat verilib.

Şəhidin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

*Asudə vaxt*

# "Qazanan dostluğumuzdur"

Müasir Azərbaycan Ordusunda yaradılan yüksək şərait, təlimlər, məşğələlər, günün nizam qaydasına uyğun olaraq həyata keçirilən digər bütün fəaliyyətlər bir məqsədə xidmət edir - yüksək döyüş hazırlığı ilə yanaşı, gənclərin hərtərəfli inkişafına, mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə. Bu məqsədə nail olmaq üçün ordumuzun bütün bölmələrində ürəkaçan şərait yaradıldığının hər addımda şahidi oluruq. Artıq İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad olunan ərazilərdə dislokasiya olunan bölmələrin də xidmət şəraiti yüksək səviyyəyə çatdırılıb. Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində 30 ilə yaxındır viran qalan ərazilərdə sürətlə yenidənqurma işləri aparılır. Bölmələrimiz üçün hər cür infrastrukturla təmin olunmuş hərbi hissələr tikilib. Belə şərait isə ordu sıralarında xidmət edən gənclərin döyüş ruhunun yüksək olmasına zəmin yaradır.

Təlim və məşğələlərdə döyüş hazırlığını artıran Vətən müdafiəçilərinin bütün qayğıları diqqətdə saxlanılır. Keçirilən məşğələlərlə yanaşı, istirahətləri, asudə vaxtları da yüksək səviyyədə təşkil olunur. Bu da onların mənəvi-psixoloji hazırlığının yüksək olmasına şərait yaradır.

İşğaldan azad olunan ərazilərdə yerləşən "N" hərbi hissəsində kapitan Kənan Mahmudov da bu mövzunun əhəmiyyətindən danışdı. Qeyd etdi ki, ordu sıralarında xidmət edən gənclərin asudə vaxtlarının düzgün təşkili də komandirlər qarşısında duran mühüm vəzifələrdən biridir. "İstirahətin mənalı keçirilməsi əsgərin mənəvi-psixoloji durumuna müsbət təsir edən əsas amillərdəndir. Şəxsi heyətin bütün fəaliyyəti kimi, asudə vaxtın təşkili də komandirlərin nəzarəti altında yerinə yetirilir. Əsgər yataqxanasında olan müasir avadanlıqlarla təchiz olunmuş sinif otaqları, ideoloji otaqlar asudə vaxtın səmərəli təşkilinə şərait yaradır. Əsgərlərimiz asudə vaxtlarında qəzet və jurnallar oxuyur, hərbi biliklərini artırır, dama, şahmat kimi stolüstü idman oyunları oynayırlar. Bu da onların hərtərəfli inkişafına, dünyagörüşlərinin artırılmasına, zehni inkişaflarına müsbət təsir edir".



Əsgər yataqxanasında zabitin dediklərinin canlı şahidi olduq. Sinif otağında asudə vaxtın səmərəli təşkili üçün əyani vasitələrin hamısı vardı. Həmçinin burada dama və şahmat oynayan əsgərləri də gördük. Maraqlı və gərgin mübarizə gedirdi. Şəxsi heyət arasında mehriban və səmimi münasibət olduğu açıq-aşkar görünürdü.

Əsgərlər Əli Nuri və Səid Cəbrayılov ən sevdikləri məşğuliyyətin şahmat oynamaq olduğunu bildirdilər. Əli əslən Lənkəran rayonundandır. Azərbaycan Kooperasiya Universitetinin məzunudu. Səid isə Ağdaşdandı. Onlar hərbi xidmətə eyni ayda çağırılıblar. Gənc əsgər hazırlığından sonra bu bölməyə təyin olunublar, çiyin-çiyinə xidmət edirlər. Həm silahdaş, həm də möhkəm dost olduqlarını dedilər. "Hər gənc kimi, biz də əsgər olmaqdan qürur duyuruq. Üzərimizə düşən müqəddəs vəzifələrin öhdəsindən məsuliyyətlə gəlməyə can atırıq. Keçirilən məşğələlərdə fəal iştirak edir, bacarıqlı əsgərlər kimi formalaşırıq. Hərbi xidmətdə döyüş hazırlığı ilə bərabər bir çox üstün keyfiyyətlər də qazanırıq. Asudə vaxtlarda şahmat oynamaq hər ikimizin sevdiyi məşğuliyyətdi. Hərdən birimiz qalib gəlirik. Təbii ki, bu bir oyundur, qazanan isə dostluğumuz olur", - Əli və Səid dedilər.

Digər masada isə İlkin və Amin dama oynayırdılar. Artıq hərəsi bir neçə daşını itirmişdi. Demək olar qalan daşların sayı bərabər idi. Elə oyunun da bərabərə qurtaracağını düşünürdüm. Birdən Amin taktiki gediş edərək, 2 daşını qurban verib, İlkinin 4 daşını qazandı. Beləliklə, oyunun sonunda Amin qalib gəldi. Amin Abdıyev Gəncə şəhərində anadan olub. Dama oynamağı oxuduğu məktəbdə öyrənib və dəfələrlə şagirdlər arasında keçirilən yarışlarda iştirak edib. İlkin Tağıyev isə hərbi xidmətə Neftçala rayonundan çağırılıb. Onlar xidmətlərindən, komandirlərindən, qazandıqları keyfiyyətlərdən danışdılar. "Burada mərd, qorxmaz, cəsur əsgərlər kimi formalaşmışıq. Təcrübəli zabitlərimizdən hərbi bilik və vərdişləri öyrənmişik. Silahımızın xüsusiyyətlərini, ondan bacarıqla istifadə etməyi və digər vəzifə borclarımızı yaxşı mənimsəmişik. Sosial-məişət şəraitimiz və təminatlarımız da qaydasındadır. Bütün fəaliyyətlərimiz belə səmərəli təşkil olunur. Hərbi xidmətdə döyüş vərdişləri qazanmaqla yanaşı, cəmiyyətə yararlı vətəndaşlar kimi də formalaşırıq. Hər birimiz yüksək döyüş ruhunda xidmət edirik və istənilən döyüş tapşırığını layiqincə yerinə yetirməyə hər an hazırıq".

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Polşa Ukraynaya MiQ-29 qırıcı təyyarələri verib



Polşa Ukraynaya bir neçə MiQ-29 qırıcı təyyarəsini təhvil verib.

Bunu Polşa Prezidentinin beynəlxalq problemlər üzrə nümayəndəsi Marçin Pşidaç RMF radiostansiyasının efirində deyib.

İndiyə qədər Polşanın 28 ədəd MiQ-29 qırıcı təyyarəsi olub. Onlar Malbork şəhərindəki aviabazada saxlanılırdı. Varşava yaxın bir neçə il ərzində həmin təyyarələri daha müasirləri ilə əvəzləməyi planlaşdırırdı.

Martın 16-da Polşa Prezidenti Anjey Duda Kiyevin yaxın günlərdə Varşavadan ilk dörd qırıcı təyyarə alacağını bildirmişdi. Onun sözlərinə görə, hazırda servis xidməti keçən qalan təyyarələr də hazırlanaraq Kiyevə göndəriləcək.

## İran ərazisindən Pakistana hücum: 4 əsgər həlak olub



İranla sərhəddə Pakistanın 4 əsgəri öldürülüb.

"TRT Haber" xəbər verir ki, bu, son 3 ayda ikinci belə hadisədir.

Pakistan ordusundan verilən açıqlamada İran ərazisindən yaraqlıların Bəlucistan əyalətinin Keç bölgəsində sərhəddə patrul maşınına silahlı hücum təşkil etdiyi və 4 əsgərin həyatını itirdiyi bildirilib. Tehrandan bu cür hücumların gələcəkdə təkrarlanmaması üçün silahlılara qarşı təsirli addımlar atması istənilib.

Hələlik, heç kim hücuma görə məsuliyyəti üzərinə götürməyib.

Qeyd edək ki, yanvarın 18-də silahlıların Bəlucistan əyalətində İran ərazisindən təhlükəsizlik qüvvələrinin karvanına hücumu nəticəsində də 4 pakistanlı əsgər həlak olmuşdur.

## ABŞ: Avropada nüvə silahlarının yerləşdirilməsi Nüvə Silahlarının Yayılmaması Müqaviləsini pozmur



NATO-nun "birgə nüvə missiyaları" çərçivəsində ABŞ-ın nüvə silahlarının Avropada yerləşdirilməsi Nüvə Silahlarının Yayılmaması Müqaviləsinin pozulması demək deyil.

Bunu cümə günü ABŞ-ın BMT-dəki daimi nümayəndəsinin müavini Robert Vud çıxışı zamanı deyib.

"Birləşmiş Ştatlar Nüvə Silahlarının Yayılmaması Müqaviləsini pozmayıb və pozmayacaq, biz onun bütün müddəalarına, o cümlədən altıncı maddəyə (nüvə silahı yarışının dayandırılması - red) tam əməl edirik", - o deyib.

Robert Vud bildirib ki, ABŞ-ın müqaviləni pozduğuna dair hər hansı fikir açıq-aşkar yalandır.

## Şimali Makedoniya Ukraynaya döyüş helikopterləri göndərəcək



Şimali Makedoniya hökuməti Ukraynaya döyüş helikopterlərinin göndərilməsi ilə bağlı qərar qəbul edib.

Müdafiə naziri Slavyanka Petrovska Ukraynaya sovet istehsalı olan 12 ədəd "Mİ-24" döyüş helikopterinin göndəriləcəyini bildirib. O deyib ki, 1984-cü ildə istehsal olunmuş və 2001-ci ildə Ukraynadan alınmış "Mİ-24" döyüş helikopterlərinin böyük əksəriyyəti ehtiyat hissələrinin çatışmazlığı səbəbindən səkkiz ildən çoxdur istismardan çıxarılıb. Həmin helikopterlər Ukraynaya ianə olunacaq.

Xatırladaq ki, Şimali Makedoniya ötən ilin ortalarında sovet dövründən qalan tankları Ukraynaya göndərib.

**AZƏRTAC-ın materialları əsasında**

*Yeni nəşrlər*

# Üç şəhid, üç kitab




Kitab yazmaq müqəddəs işdir. Əgər yazılan bu kitab torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş hərbçilər haqqındadırsa, bu, ikiqat müqəddəslikdir. Vətən uğrunda gedən qanlı döyüşlərdə şəhid olanlar hamımızın əzizimizdir. Belə cəsur oğullar haqqında kitabların yazılması, yayılması da müqəddəs bir amala xidmət edən xeyirxah əməldir.

C.Naxçıvanski adına Hərbi Liseyin müəllimi, qəhrəmanlıq mövzusunda neçə-neçə kitabın müəllifi, "Qızıl qələm" mükafatına və "Məhsəti Gəncəvi" fəxri diplomuna layiq görülmüş şair Mətanət İmamquluyeva 2022-ci ildə bu müqəddəs işə başlayaraq torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş üç igid hərbçimiz - Elvin İmaməliyev, Səbuhi Əhmədov, Emin Əmrahov haqqında ayrı-ayrı kitab yazıb. Onları xalqa yaxından tanıtdırıb.

Şəhidlər haqqında yazılmış bu 3 kitabı maraqla, qürur qarışıq kövrəkliklə oxudum. Gizir Səbuhi Əhmədov haqqında yazılan "Səbuhinin əbədiyyət ömrü" kitabının gözəl tərtibatı elə ilk dəqiqədən diqqətimi çəkdi. Gizir Səbuhi Əhmədova həsr edilmiş kitab "Vətən yaşasın!" yazısı ilə başlayır. Mətanət xanım ilk səhifələrdə kitabın necə yazıldığı, hansı mərhələlərdən keçdiyi barədə oxuculara ətraflı məlumat verir.

Kitabı oxuduqca gizir Səbuhi Əhmədovun keçdiyi ömür və döyüş yolları ilə yaxından tanış oluruq. Öyrənirik ki, Əhmədov Səbuhi Fuad oğlu 21 dekabr 1996-cı ildə Bakı şəhərində anadan olub. Kiçik yaşlarından valideynlərini itirdiyinə görə Səbuhini qardaşı Sənanla birlikdə "SOS" Uşaq Evinə veriblər. 18 yaşı çatanda Səbuhi hərbi xidmətə yollanıb, Vətənə əsgər olub. Vətən qarşısındakı övladlıq borcunu şərəflə yerinə yetirəndən sonra da ömrünü orduya bağlayıb. 27 sentyabr 2020-ci ildə ermənilərin təxribatı ilə İkinci Qarabağ müharibəsi başlayanda Səbuhinin xidmət etdiyi hərbi hissənin şəxsi heyəti də döyüşlərdə iştirak ediblər. Başqa hərbçi yoldaşları kimi, Səbuhi də döyüşlərə cəsarətlə atılıb. Torpaqlarımızın azadlığı uğrunda gedən əməliyyatlarda böyük igidlik göstərib. Gizir Əhmədov Səbuhi Fuad oğlu İkinci Qarabağ müharibəsində göstərdiyi igidliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "Cəsur döyüşçü" medalına layiq görülüb.

Vətənə böyük sevgisi olan gizir Səbuhi Əhmədov 2022-ci il sentyabrın 12-də həyata keçirilən əməliyyatda da iştirak edib. Üzərinə düşən döyüş tapşırıqlarını şərəflə yerinə yetirən gizir Səbuhi Əhmədov bu əməliyyatda şəhid olub. Göstərdiyi qəhrəmanlığa görə Əhmədov Səbuhi Fuad oğlu Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeninə və "Vətən uğrunda" medalına layiq görülüb.

Müəllif kitabda Səbuhinin qardaşı Sənanın xatirələrinə geniş yer verib. Bu xatirələrdə Səbuhi Əhmədovun həm döyüş, həm də ömür yolu dolğun əks olunub. Kitabda fotoalbom bölümü də var. Bu bölümdə Səbuhinin müxtəlif illərdə, müxtəlif məkanlarda çəkdirdiyi şəkillər yer alıb.

Mətanət İmamquluyevanın "Eminin şəhidlik zirvəsi" kitabı İkinci Qarabağ müharibəsində şəhid olmuş Əmrahov Emin Əvəz oğlunun ömür və döyüş yoluna həsr olunub. Emin Əmrahov Xocavənd rayonunun erməni işğalçılarından azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub. Göstərdiyi şücaətə görə Əmrahov Emin Əvəz oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Döyüşdə fərqlənməyə görə", "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medallarına layiq görülüb. Kitabın redaktoru şeir və poemalarını sevə-sevə oxuduğumuz Azərbaycanın Xalq şairi Nəriman Həsənzadədir.

"Eminin şəhidlik zirvəsi" kitabı Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin bu dəyərli sözləri ilə başlayır: "Şəhidlərimizin ruhu qarşısında baş əyirəm, bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının qanı yerdə qalmır. İntiqamımızı döyüş meydanında aldıq".

Kitabda Eminin həyat və döyüş yolu barədə məlumat yer alıb. Emin 9 iyun 1989-cu ildə Ağstafa rayonunun Qırılı kəndində anadan olub. Gəncə şəhərindəki Məhəmməd Hadi adına 10 nömrəli orta məktəbdə oxuyub. Orta təhsilini başa vurandan sonra ordu sıralarına çağırılıb. Vətən qarşısındakı övladlıq borcunu layiqincə yerinə yetirib. Əsgəri xidmətini başa vurduqdan sonra ömrünü ordu həyatına bağlayıb. İkinci Qarabağ müharibəsi başlayanda, o da idarə etdiyi tankla döyüşə qatılıb. Neçə-neçə erməni mövqeyini dağıdıb. 27 oktyabr 2020-ci ildə Emin Əmrahov növbəti döyüş tapşırığını yerinə yetirərkən şəhid olub. Emin qısa, amma şərəfli bir ömür yolu keçib.

Mətanət İmamquluyeva kitabında yaxınlarının Eminlə bağlı xatirələrinə geniş yer verib. Şəhidin həyat yoldaşı Gülnar xanımın xatirələrini oxuduqca qürur və kədər hissləri keçiririk: "Balalarına deyirəm ki, atanız sağ-salamatdı, günlərin birində qayıdacaq. Övladlarım atalarının şəhid olduğunu, heç vaxt geri dönməyəcəyini dərk edənə kimi Eminin yoxluğunu onlara deməyəcəm. Emin yanımıza müqəddəs bayraqla gəlmişdi. Özü getdi, bayraq isə bizimlə qaldı. Sanki onu bizə əbədi bir nişanə, əmanət qoyub getdi. Eminin dörd övladını yaşatmaq üçün yaşayıram".

Mətanət xanım "Eminin şəhidlik zirvəsi" kitabında da yeri düşdükcə fikirlərini poetik şəkildə ifadə edir. Şəhidlərin qəhrəmanlığına, şücaətinə bir-birindən məzmunlu şeirlər yazır. Onların qəhrəmanlığını nəzmə çəkir.

Mətanət İmamquluyevanın "Qələmi silaha dəyişən müəllim" kitabında İkinci Qababağ müharibəsində yurdumuzun azadlığı uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş cəsur Vətən oğlu Elvin İmaməliyevin döyüş və ömür yolundan bəhs olunur.

Ön sözündə Azərbaycan Yazıçılar Birliyinin bölmə sədri, "Ədəbiyyat qəzeti"nin şöbə redaktoru Sərvaz Hüseynoğlu kitaba yüksək dəyər verərək yazır: "Mən söz adamıyam. Bütün səmimiyyətimlə etiraf edirəm ki, şəhid qardaşımız Elvin müəllim haqqında yazılan bu kitabın mənə yaşatdığı qəlb çırpıntılarını, qürur duyğularını, ağrı və nisgili heç vaxt keçirməmişəm".

Cümlələri oxuduqca hiss edirsən ki, bu fikirlər səmimiyyətdən doğulur. Oxucular yaxşı bilirlər ki, hər yazılmış kitaba belə yüksək dəyər verilmir. O kitaba layiqli qiymət verilir ki, reallığı əks etdirsin, böyük oxucu sevgisi qazansın, mövzusu zamanlara sığmasın. Deməli, kitab bu dəyərlərə cavab verir. Əsəri vərəqlədikcə öyrənirik ki, Vətənimizin azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş Elvin İmaməliyev böyük tarixi bir gündə - 9 may 1989-cu ildə Ağstafa rayonunun Qırılı kəndində dünyaya göz açıb. Bildiyimiz kimi, mayın 9-u uzun illərdir faşizm üzərində Qələbə günü kimi qeyd olunur. Yaxınları güman edirdilər ki, belə əlamətdar bir gündə dünyaya gəlmiş Elvini gələcəkdə böyük uğurlar gözləyir.

Elvin 1995-ci ildə Ağstafa rayon Qırılı kəndindəki Sirac Əliyev adına orta məktəbin birinci sinfinə gedir. Təhsilini yüksək qiymətlərlə başa vurduqdan sonra 2006-cı ildə 530 balla Azərbaycan Dillər Universitetinin fransız dili fakültəsinə qəbul olur. Gələcəyin fransız dili müəllimi 2010-cu ildə ali təhsilini başa vurur. Elə həmin il hərbi xidmətə gedir. Ordu sıralarından qayıtdıqdan sonra doğma kəndlərindəki məktəbdə yeddi il fransız dili müəllimi işləyir. 2018-ci ildə direktorların işə qəbulu imtahanında ən yüksək bal topladığına görə onu 1 nömrəli orta məktəbə direktor təyin edirlər. Vəzifəsinə baxmayaraq Elvin İmaməliyev müharibəyə gedib. Gedib ki, Vətən qarşısındakı övladlıq borcunu şərəf və ləyaqətlə yerinə yetirsin. Yetirir də. Ondan geriyə yalnız və yalnız igidliklərlə dolu səhifələr qalıb.

Müəllif şəhid Elvin İmaməliyevin ömür və döyüş yollarını ardıcıllıqla işıqlandırır. Elvinin anası Rəfiqə xanımın, atası Elsevər kişinin, həyat yoldaşı Əsmər İmaməliyevanın, bacıları Günelin və Gülərin, iş yoldaşlarının, dost-tanışlarının xatirələrini qələmə alır. Bu xatirələri oxuduqca Elvinin göstərdiyi şücaətlər gözlərimiz qarşısında canlanır.

İkinci Qarabağ müharibəsinə yollanan Elvin böyük igidliklər göstərir. Sərrast atəşlə neçə-neçə erməni qəsbkarını məhv edir. Əməliyyatlar zamanı göstərdiyi igidliyə görə İmaməliyev Elvin Elsevər oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Şuşanın azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medallarına layiq görülüb.

Şəhid Elvin İmaməliyevin iki oğlu - Təyyar və Tunar yadigar qalıb. Onlar həmişə ataları ilə fəxr edəcək, qürur duyacaqlar. Xalqa qələbə sevinci yaşatmış Elvin İmaməliyev kimi cəsur oğullar heç vaxt unudulmayacaqlar. Bu cəsur oğullar haqqında yazılmış belə dəyərli kitablar onları unudulmağa qoymayacaq.

Müəllif kitabları yazanda fikirlərinin daha aydın, sözlərinin daha təsirli olması üçün maraqlı formalar tapır. Yeri gəldikcə, məqam düşdükcə görkəmli din xadimlərinin, dünyanın məşhur yazıçı və şairlərinin, filosoflarının sözlərindən və fikirlərindən dəyərli nümunələr gətirir. Oxucuda kitaba maraq oyadır. Bu, həm də Mətanət xanımın mütaliəsinin zənginliyindən xəbər verir.

İnanırıq ki, Mətanət İmamquluyevanın şəhidlər haqqında yazdığı kitablar oxucular tərəfindən rəğbətlə qarşılanacaq. Gənc nəsillər zaman-zaman qəhrəmanlığı belə kitablardan da öyrənəcəklər.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Cüdoçularımız “Böyük dəbilqə” turnirində iki medal qazanıblar



Azərbaycan cüdoçuları Antalyada "Böyük dəbilqə" turnirinin ikinci gününü iki medalla başa vurublar.

Turnirdə 81 kiloqram çəki dərəcəsində yarışan cüdoçumuz Səid Mollayi finalda belçikalı idmançı Matias Kasse ilə qarşılaşıb. Rəqibinə məğlub olan cüdoçumuz gümüş medalla kifayətlinib.

Millimizin üzvü Hidayət Heydərov (73 kq) isə bürünc medal əldə edib. H.Heydərov üçüncü yer uğrunda görüşdə komanda yoldaşı Nurlan Osmanovla qarşılaşıb. N.Osmanov isə yarışı beşinci yerdə başa vurub.

## Taekvondoçularımız açıq Avstriya çempionatında iki medal qazanıblar



İnsbrukda keçirilən taekvondo üzrə açıq Avstriya çempionatı başa çatıb. Azərbaycan millisi G1 kateqoriyalı beynəlxalq yarışı 1 qızıl və 1 bürünc medalla başa vurub.

Çempionatda çıxış edən yığmamızın heyətində Cavad Ağayev (74 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Dünya çempionatının mükafatçısı ardıcıl olaraq Ukrayna, Almaniya, Xorvatiya və Qazaxıstan idmançılarını məğlub edərək finala yüksəlib. O, həlledici görüşdə də qazaxıstanlı taekvondoçuya qalib gələrək, Azərbaycan Himnini səsləndirib.

Komandamızın aktivinə digər mükafatı Taleh Süleymanov (87 kq) yazdırıb. Reytinqinə görə ilk mərhələdən azad olan idmançımız mübarizəyə səkkizdəbir finalda Polşa təmsilçisi ilə başlayıb. İnamlı qələbə qazanan T.Süleymanov daha sonra Qazaxıstan idmançısından da güclü olub. O, yarımfinalda xorvatiyalı taekvondoçu ilə döyüşüb və rəqib qələbə qazandığından təmsilçimiz bürünc medala sahib olub.

## Avarçəkənimiz Diana Dımçenko İtaliyada “Paolo d'Aloja” memorialında birinci olub



Akademik avarçəkmə üzrə Azərbaycan yığma komandasının üzvü Diana Dımçenko daha bir beynəlxalq reqatada qızıl medal qazanıb. İdmançımız bu uğura İtaliyada təşkil edilən "Paolo d'Aloja" memorialında imza atıb.

İtaliya Avarçəkmə Federasiyasının keçmiş prezidentinin xatirəsinə həsr edilən və sayca 37-ci dəfə keçirilən beynəlxalq reqatada təmsilçimiz bir nəfərlik qayıqla 2 min metr məsafəyə təsnifat mərhələsində üçüncü olub və finala vəsiqə qazanıb. Olduqca gərgin idman mübarizəsi şəraitində keçən final yürüşündə isə idmançımız ən yaxın izləyicisi serbiyalı Yovana Arsiki 1,05 saniyə geridə qoymaqla qızıl medala layiq görülüb.

## Azərbaycanın bədii gimnastları Sarayevoda beynəlxalq turnirdə 15 medal qazanıblar



Bədii gimnastika üzrə Azərbaycan yığma komandasının üzvləri Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda təşkil olunan "Suada Dilberoviç" beynəlxalq turnirində uğurla çıxış ediblər.

Gimnastlarımız turnirdə 5 qızıl, 5 gümüş və 5 bürünc medal qazanıblar. Alina Məmmədova 3 qızıl (çoxnövçülük, halqa, top), 1 gümüş (lent), 1 bürünc (gürzlər), Leyli Ağazadə 2 qızıl (gürzlər, lent), 2 gümüş (çondinövçülük), 1 bürünc (top), Mədinə Dəmirova əlavə 2 gümüş (top, gürzlər) və 3 bürünc (çoxnövçülük, lent, halqa) medala sahib olublar.

**AZƏRTAC-ın materialları əsasında**


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| kapitan Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi | Bəxtiyar ƏLİYEV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 169 Nüsxə 4725 |